# MARAQLI TAPINTILAR
# INTERESTING EXPLORATIONS
# ИНТЕРЕСНЫЕ НАХОДКИ

## GORANTƏPƏ YAŞAYIŞ YERİ

**Həbib Şəhbazi Şiran**
(Ərdəbil Universiteti, İran İslam Respublikası)
shahbazihabib@yahoo.com

**Açar sözlər: Ərdəbil, Gorantəpə, İslam dövrü, saxsı, “Ağkənd”.**

İran İslam Respublikasının şimal-qərbi, xüsusilə Cənubi Azərbaycanın Ərdəbil bölgəsi müxtəlif dövrlərə aid, müxtəlif xarakterli arxeolji abidələrlə zəngindir. Onların böyük əksəriyyətində geniş miqyaslı arxeoloji qazıntılar aparılmayıb və bu abidələr yalnız kəşfiyyat xarakterli ilkin tədqiqatlarla öyrənilib. Belə abidələrdən biri də Gorantəpədir. Gorantəpə yaşayış yeri Cənubi Azərbaycanın Ərdəbil bölgəsinin mərkəzi hissəsində, 48º/10΄ simal en dairəsi, 38º/18΄ sərq uzunluq dairəsi koordinatlarında, Ərdəbil səhərindən 7 kilometr simalda yerləsir.

Gorantəpə arxeoloji abidəsi geniş sahəli təpədən və onun qərb tərəfində nisbətən hamar sahə üzərində yerləşən qəbiristanlıqdan ibarətdır. Yaşayış yerinin özü das və qumdan təskil olunmus təbii bir təpə üstündədir. Sərq tərəfindəki əraziyə nisbət hündürlüyü 15-metrdir. Dəniz səviyyəsindən hündürlüyü 1427 metrdir. Təpənin yamacları simal və şərq tərəflərdə sərtdir. Təpənin cənub tərəfində şərait dəyisir, burada ətəklərin enişi mailidir. Təpə qərb tərəfdə üzərində qəbiristanlıq olan hamar sahəyə bitismisdir. Burada yamac mailidir. Qərb tərəfində yenicə salınan bəndin süni su axacağının (kanalın) çəkilişi nəticəsində mədəni təbəqə yatımı dağıntıya məruz qalmış, dərinliyi 10 metrə çatan kəsik əmələ gəlmişdir. Abidənin sərhədləri yalnız təpə ilə hüdudlanmır. Təpənin şimal, cənub və qərb tərəflərdə, nisbətən düzən sahələrindən əldə edilmis müxtəlif dövrlərə aid maddi mədəniyyət qalıqları, ilk növbədə saxsı nümunələri təpənin üzərində və ətəklərindəki yerüstü arxeoloji materiallarla sinxron və eyni xarakterlidir və abidənin geniş bir ərazini tutduğunu təsdiqləməyə əsas verir.

Yaşayış yerinin topoqrafiyası, kəşfiyyat xarakterli ilkin tədqiqatlar təpənin üzərində son tunc dövründə kiçik bir qalanın inşa edildiyini və həmin qaladan sonrakı dövrlərdə də istifadə edildiyi göstərir (5, s.17-18).

Qala divarlarının qalıqları yalnız təpənin cənub tərəfində qalıb. Əgər şimal və şərq tərəflərdə qala divarları sərt enişin nəticəsində uçulub dağılmışdırsa, qərb tərəfdə kanal çəkilərkən təpənin bir yanın kəsilməsi ilə əlaqədar məhv olmuşdur. Təpənin cənub tərəfindəki qalıqlar qala divarının ikiqatlı olub məhluldan istifadə etmədən daşqura üsulu ilə hörüldüyünü göstərir. Təpənin üzərində dağılmış binaların bünövrələrinə, ocaq və təndir izlərinə rast gəlinir. Belə qalıqlar əsasən qeyri-qanuni qazıntı işlərinin aparıldığı sahələrdə müşahidə olunur. Qəbiristanlıq, yuxarıda qeyd olunduğu kimi, təpənin qərbində nisbətən hamar bir sahədə yerləşib. Burada çöküntülərin miqdarı çox oldugundan qəbirlərin üstü torpaqla örtülmüsdür və qəbirlərin izləri itmişdir. Burada su kanalının çəkilməsi ilə əlaqədar torpaq işləri görərkən 5-6 qəbrin üzəri açılmışdır. Qəbirlərin təbii və ya kobud yonulmuş nisbətən iri daşlardan qurulduğunu nəzərə alaraq onları daş qutu qəbirləri tipinə aid etmək olar.

İlkin kəşfiyyat xarakterli tədqiqatlar zamanı əldə olunan yerüstü arxeoloji materiallar arasında İslam dövrü saxsı məmulatı tam üstünlük təşkil edir və orta əsrlərdə burada intensiv həyatın olduğunu ehtimal etməyə əsas verir.

Toplanmış saxsı məmulatı arasında şirli saxsı qabların fraqmentləri xüsusilə böyük maraq doğurur. Onların əksəriyyəti narın, təmiz gildən hazırlanmış, sabit hərarət rejimində bişirilmiş, saxsısı sıx, əsasən üzəri anqob astar üzrə keyfiyyətli şirlə örtülmüş kasa, boşqab və nimçələrin ağız, gövdə və ya oturacağının kiçik qırıqlarından ibarətdir. Bununla belə onlar abidənin xarakterini müəyyənləşdirmək baxımından çox əhəmiyyətlidir. Onların bədii işlənməsində sqrafitto texnikası geniş tətbiq olunmuşdur. Bu naxışçəkmə texnikasına görə məmulat anqob astar ilə örtüldükdən sonar anqob hələ nəm ikən itiuclu alətlə nəzərdə tutulan naxış cızılıb salınırdı və məmulat şirləndikdən sonra naxış xətlərində şir qırmızı rəngli saxsı üzərinə düşür və anqoblanmış fona nisbətən tünd rəng alınırdı.Nəticədə incə qrafik naxışlar alınırdı (2, s. 164). Məlum olduğu kimi, bu naxışçəkmə üculu İslam keramikasında geniş yayılmışdı. Samirə, Nişapur, Səmərqənd kimi məşhur dulusçuluq mərkəzlərində də bu texnika uğurla tətbiq olunub. Sqrafitto naxışçəkmə texnikası öz inkisaf prosesində "Ağkənd" adlanan keramika tipində_ son kulmınasiya nüqtəsinə çatmısdır.

"Ağkənd" Təbrizin şərqində yerləşən məntəqənin adıdır. Bədii keramikanın belə adlanmasının tarixi və arxeoloji kökü olmasa da, Azərbaycanda genis istehsal olunduğu üçün bu tip keramika həmin adla elmi ədəbiyyata daxil olmuşdur. Ehtimal etmək olar ki, "Ağkənd" sqrafitto variantının mərkəzi Azərbaycan olmusdur. "Ağkənd" sqrafitto qablarının Amul variantı da ümumiyyətlə müxtəlif rənglərdən ibarətdır. Onlar sarı, qəhvəyi, yasıl rənglərdə, bəzən qırmızı rəngdə olurdu.

Bu tip qablara həndəsi və nəbati naxıslar salınırdı. Bəzən onların üzərində təsvir motivlərinə, heyvan ya da insan rəsmlərinə də rast gəlinir. Oxşar qablar Təxt-i Süleymanda, Bəstamda və Azərbaycan Respublikası ərazisində Örənqala, Qədim Gəncə, Şabran, Şəmkir şəhər yerlərində aparılan qazıntılarda askar edilmisdir (1). Qablarda bəzən dulusçu ustanın adı yazılırdı. Əbutalıb adı ilə imzalanmış iki nümunə qablardan biri Paris, digəri Çikaqo muzeyində saxlanılır. Azərbaycanda askar edilən orta əsrlərə aid şirli saxsı tipləri içində yüksək bədiiliyi ilə fərqlənən "Ağkənd" tipli saxsı qablarının XII əsrin ikinci yarısı-XIII əsrin ilk qərinəsində yerli dulusçular tərəfindən istehsal edildiyi müəyyənləşdirilib. Monqolların yürüşündən sonrakı illərdə daha "Ağkənd" qabları istehsal olunmurdu. Çünki bu tip qablardan heç bir nümunəsinə rast gəlinmir.

Rey səhərində əldə olunan "Ağkənd" saxsı qabları tipi ehtımal ki, Rey vilayətində idxal olunmus və çox güman ki, Azərbaycandan aparılmısdılar. Bunlara bənzər saxsı qab nümunələri XIV əsrdə Sərqi Anadolu və Şimali Suriyada istehsal edilmisdir (4, s.601-609).

Ərdəbil bölgəsinin İslam dövrünə aid abidələrindən “Ağkənd” tipli keramika kütləvi tapıldığından onların Ərdəbilin özündə istehsal edilməsi şübhə doğurmur və Gorantəpədən əldə olunan tapıntıların da Ərdəbilin yerli istehsalına mənsubluğunu təsdiqləmək olar.

Gorantəpədən əldə olunmuş yerüstü arxeoloji materiallar içərisində fayans, o cümlədən “minai” tipli fayans qab qırıqları da vardır. İslam dövründə ağ gildən istifadə etməklə fayans qablar istehsalının təşkili texniki baxımdan dulusçuluqda mühüm hadisə sayıla bilər. Başlıca xammal Kasan şəhərinin yaxınlığında çıxarılan kvars qumu və potaş kimi materiallardan ibarət idi.

“Minai” tipli qabların istehsal texnikası Misirdən İrana keçmisdir. Hadisə Misirdə fatimilər dövlətinin devrildiyi dövrə təsadüf edir. Qeyri-sabitlik dönəmində bir çox usta və digər sənətkarlar Misirdən İrana köçüb gəlmiş və özləri ilə birlikdə İrana “minai” tipli qabların texnologiyasını gətirmişlər. Artur Poup bu növ saxsıların ayrı - ayrı yerlərdə hazırlandıgını söyləmisdir (3). Bəzi tədqiqatçılar fayans qabların başlıca mərkəzlərinin Rey və Kaşan olduğunu bildirirlər.

Qeyd edək ki,Gorantəpə ərazisində əsasən monoxrom fayans qab qırıqları əldə edilmisdir.

Gorantəpədən numizmatik tapıntılar da aşkarlanıb və bunlar Səlcuqlar dövrünə aid sikkələrdən ibarətdir.

Yuxarıda qeyd olunanları yekunlaşdıraraq belə bir qənaətə gəlmək olar ki, son tunc dövründə Gorantəpə ərazisində ilk məskunlaşma olmuş, burada qala inşa edilmişdir. Təpənin yaxınlığında isə həmin yaşayış məskənin qəbiristanlığı yerləşmişdir. Orta əsrlərdə burada kənd tipli yaşayış məs-

kəni fəaliyyət göstərmişdir. Yerüstü arxeoloji materiallara istinadən burada monqol işğalı ilə həyatın kəsildiyi və yaşayış məskəninin tərk olunduğunu ehtimal etmək olar.

## ƏDƏBİYYAT

1. Azərbaycan arxeologiyası altı cilddə. VI cild. Bakı, “Şərq-Qərb”, 2008, 632 s.
2. Dostiyev T. Şimal-Şərqi Azərbaycan IX-XV əsrlərdə. Bakı Universitetinin nəşr., 2001, 396 s.
3. Pope A. U. The ceramic art in islamic times. // A Survey of Persian art. Tokyo, Meiji-Shobo, 1965, vol. 4, pp.1446-1807.
4. Schnyder R. Encyclopadia İranica, Ehsan yarshater ed. Vol. 3, Mazda publishers, Costamesa, 1991
5. Rudolf Nauman. Texte-Soleyman vfe Zendane- Soleyman (tərcome Fəramərz Nəcd Səmii). Tehran, Sazemane miraze fərhəngiye kəşvər, 1374 şəmsi.

## GORANTAPPEH SETTLEMENT

**Habib Shahbazi Shiran**

### Summary

**Key words: Ardebil, Goran, Islamic period, ceramics, “Ag-kand”**

The article reports on the settlement Gorantappeh located in South Azerbaijan, 7 km north of the Ardebil. The monument is a large of 15 m high hill which slopes to the east and north are steep and the south inclined. The western side of the hill was destroyed during the construction of the canal.

Exploratory archaeological research found that in The Late Bronze Age hill fort was built of large stone blocks of dry masonry, of which remains only the southern wall. In the middle Ages there were functioning rural settlement type. The traces on the hill are foundations of medieval building and remains of ochaks and tandirs. Archaeological materials from the settlement consist of fragments of glazed pottery and goods of Seljuk period. Particularly well represented ceramics such as Ag-kand.

# ПОСЕЛЕНИЕ ГОРАНТЕПЕ

**Габиб Шахбази Ширан**

## Резюме

**Ключевые слова: Ардебиль, Горан, исламский период, керамика, «Аг-кенд»**

В статье сообщается о поселении Горантепе, находящемся в Южном Азербайджане, в 7 км к северу от города Ардебиль. Памятник представляет собой крупный холм высотой 15 м, склоны которого с востока и севера крутые, а с юга умеренные. Западная сторона холма частично подверглась разрушению при строительстве канала.

Разведочными археологическими исследованиями установлено, что в эпоху поздней бронзы на холме была возведена крепость из больших каменных блоков сухой кладкой, от которой сохранились только остатки южной стены. В эпоху средневековья здесь функционировало поселение сельского типа. На холме зафиксированы следы фундаментов средневековых строений, остатки очагов и тендиров. Подъемный археологический материал из поселения состоит из фрагментов глазурованных и простых керамических изделий сельджукского периода. Особенно хорошо представлена керамика типа «Аг-кенд».




**Tablo I. Gorəntəpə yaşayış yeri. Şirli saxsı qab nümunələri**




**Tablo II. Gorəntəpə yaşayış yeri. Şirli saxsı qab nümunələri**